# *PSİXOLOGİYA*

## Pedaqoji prosesin iştirakçılarının sosiallaşma və identifikasiyasının gender aspektləri

**Qızxanım Nizaməddin qızı Qəhrəmanova**
*ADPU-nun "Pedaqoji psixologiya" kafedrasının müdiri,*
*psixologiya üzrə elmlər doktoru, professor*
**E-mail:** qehremanova.qizxanim@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos.M.C.İsmayılova,
psixol.ü.f.d., dos. N.T.Rzayeva

**Açar sözlər:** sosiallaşma, identifikasiya, cins-rol yanaşması, gender, gender stereotipləri
**Ключевые слова:** социализация, идентификация, гендерно-роль подход, гендер, гендерные стереотипы
**Key words:** socialization, identification, gender-role approach, gender, gender stereotypes

Şagirdlərin ictimai münasibətlərdə subyekt rolunda fəaliyyət göstərdikləri sosial mühit olan məktəbdə təhsilalanlar iyerarxik səviyyədə yaşıdları, təcrübəli və nüfuzlu müəllimləri ilə birgə fəaliyyətdə olurlar. Bu da ümumi təhsil müəssisələrində oxuyanların şüurunda gender stereotiplərinin praktik əhəmiyyətini möhkəmləndirir, formalaşan qarşılıqlı münasibət və davranış modelləri əks cinslərin ünsiyyətdə uğur və uğursuzluqlarını müəyyən edir, şəxsi ailədə münasibətlərə təsir göstərir. Bunu nəzərə alaraq, məktəb şagirdlərin potensial imkanlarını inkişaf etdirməli və tərəfdaşlar arasında harmonik münasibətlərin inkişafını təmin etməlidir.

Təəssüflər olsun ki, şəhər məktəblərində dərs deyən müəllimlərin əksəriyyəti qadındır. Məktəbdə kişi müəllimlərinin azlığı oğlan şagirdlərinə münasibətdə özünü göstərir. Onlar I sinfə qəbul olan andan artıq "gender konstantlığını"- öz cinsinin dəyişməməzliyini başa düşürlər. Oğlanlar müəllimlərini davranışlarına və xarakterik xüsusiyyətlərə görə təsnif edir, onların "kişi" və ya "qadın" kateqoriyalarına mənsubluğunu səciyyələndirirlər. Qadın müəllim uşağın diqqət və marağını cəlb etmirsə, o zaman şagirdlərdə təlimə və ünsiyyətə maraq itir, bu da tənhalığa, məktəb nevrozuna və səthi biliklərin alınmasına, həvəssizliyə səbəb olur.

Belə situasiya şagirdləri qayda-qanuna öyrədərkən qadın müəllimlərin yol verdikləri pedaqoji səhvləri gücləndirir. Oğlan şagirdlər sinifdə həmişə pedaqoji təzyiqin və tənqidin təsiri altında olur, çünki o bütün günü eyni pozada, stol arxasında oturmalı, heç kəslə danışmamalı və yan tərəfə çevrilməməlidir. Tənəffüsdə isə yalnız kənarla hərəkət etməlidir ki, başqalarına mane olmasın. Sonsuz sayda qadağalar və cəzalandırma sanksiyaları (gündəliyə yazmaq, valideynləri məktəbə çağırmaq) şagirddə cins-rol özünüidentifikasiyasının pozulmasına səbəb olur. Unutmaq olmaz ki, təhsil və tərbiyə prosesinin əsas məqsədlərindən biri kimi şəxsiyyətin inkişafında müxtəlif tərəfləri şüurlu və vahid halda birləşdirmədən uğur əldə etmək qeyri-mümkümdür.

Bu tərbiyəni, ilk növbədə, müəllimlərin, tələbələrin şagirdlərə məhəbbət və tolerantlığından başlamaq lazımdır. Bunun üçün ali pedaqoji məktəblərdə gender istiqamətində bir çox fənlərin: ailə və gender psixologiyası, gender problemləri, gender **sosiallaşması**, sosiogender münasibətləri və s. öyrədilməsi zəruridir. Bunlarla yanaşı, müəllimlərin sosial-iqtisadi səviy-

yəsi də yüksəldilməlidir ki, bu peşə üzrə işləmək istəyən kişilərin sayı artsın. Məktəblərdə dərslərarası tənəffüslərdə şagirdlər üçün fiziki və emosional gərginliyin aradan qaldırılması məqsədilə xüsusi yerlər də hazırlanmalı, pozitiv tədbirlər həyata keçirilməlidir.

Bütün sadalanan pozitiv tədbirlər vahid gender psixologiyası və pedaqogikası konsepsiyasına uyğunlaşdırılmalıdır ki, şagirdlərin müasir cəmiyyətə adaptasiyasına kömək etsin, onların fərdi keyfiyyətini, istedad və qabiliyyətini daha da inkişaf etdirsin. İ.S. Klesinovun fikrincə, ictimai münasibətlərin sosial-psixoloji determinantı sosial təsəvvürlərdir: qruplararası birgə fəaliyyət səviyyəsində determinant münasibətlər rolunda sosial stereotiplər mühüm əhəmiyyət kəsb edir, şəxsiyyətlərarası münasibətlər sosial yönəlişliklərlə, şəxsiyyətin özünəmünasibəti isə sosial identikliyin xarakteristikası ilə şərtlənir.

Sosial identiklik böyük və kiçik qruplara məxsus qrup üzvlərində hər hansı bir sosial kateqoriyanı daxil etməklə şərh edilir. Sosial identikliyin fərd üçün mahiyyəti ondan ibarətdir ki, o, müəyyən sosial qrupa məxsusdur və qrup üzvlərində onun emosional əhəmiyyəti vardır. İdentiklik şəxsiyyətin sosial yönəlişliyinin aləti kimi nəzərdən keçirilir. Sosial identikliyin konstruktiv potensialı onunla nəticələnir ki, öz qrupuna mənsubluğun dərk edilməsi və bu qrupun emosional əhəmiyyətliliyi "Mən obraz"ının yaranması ilə şərtlənir. O, sosial təsəvvürlər, şəxsiyyətin streotipləri, yönəlişlikləri, identikliyi, insanın sosial-psixoloji xarakteristikası və ya subyektlərin münasibəti kimi təzahür edir. Onlar bir tərəfdən bu münasibətlərin subyektiv ifadəçiləri, digər tərəfdən isə münasibətlərin determinantları kimi təqdim olunur, kontekst münasibətlərin məzmununu ifadə edirlər.

Gender təsəvvürlərində, stereotiplərdə, sosial identiklikdə, sosial münasibətlərdə kişi və qadın statusuna aid olan normativ baxışlar, onların psixoloji xarakteristikası, davranış xüsusiyyətləri əks etdirilmişdir. Gender münasibətlərinin təhlil edildiyi makrososial səviyyədə - "kişi və qadın şəxsiyyəti – cəmiyyət, mədəniyyət", gender münasibətlərinin sosial-psixoloji determinantları rəngarəng sosial təsəvvürlər kimi gender təsəvvürləridir. Sosial qrupların birgə fəaliyyəti səviyyəsində "qrup-qrup" sistemində cinsi əlamətlərə görə eynicinsli gender münasibətlərinin psixoloji təhlili həyata keçirilir. Cinslərarası münasibətlərin determinant amilləri gender stereotipləridir ki, onlar sosial stereotiplərin müxtəlifliyini əks etdirir.

Kişi və qadınlar arasında şəxsiyyətlərarası münasibətlər səviyyəsində təhlilin obyekti - "şəxsiyyət-şəxsiyyət" sistemi mühüm rol oynayır. Həmin sistemdə əks cinslər qarşılıqlı fəaliyyətdədir. Bu səviyyənin gender münasibətləri sosial yönəlişliyin növlərindən biri kimi gender yönəlişliyinin determinantlarıdır.

Şəxsiyyətdaxili səviyyədə sosial identikliyin tərkibi olan gender identikliyi təhlilin obyekti kimi həyata keçirilir. Gender təsəvvürləri, stereotiplər, yönəlişlik birgə fəaliyyətin cinslərarası real reaksiyasına təsir göstərir, gender münasibətlərinin davranış modelini konstruksiya edir. İdentiklik transformasiyalı bir proses olub, adekvatlığın təminatında həyata keçirilir. İdentikliyin transformasiyası sosial dinamika ilə şərtlənir, dəyişən şəraitdə adaptasiyanın, özünüreallaşdırmanın imkanlarını və çoxsaylı əlaqələrin soaiallaşmada diferensiasiyasını təşəkkül etdirir. O, axtarıcı permanent xarakter daşımaqla özünü həmişə identifikasiya edir.

Kişilik və qadınlıq kanonları dəyişir, onlar kişi və qadın sosial-istehsalat rollarının polyarizasiyasının zəifləməsinə və fəaliyyət sferasına və psixoloji xarakteristikanın dəyişməsinə aparıb çıxarır. İdentikliyin transformasiyası internalizasiya bazasında baş verir, o fərdin imkanlarını, onun yaşını, mədəniyyətini, sosial qrup və fərdi-şəxsi xüsusiyyətləri əhatə edir. İdentiklik prosesində dəyişikliklər bütün həyat boyunca davam edir. Şəxsiyyətin həyatında sosimədəni şəraitdə dəyişikliklər, yeni texnologiyalar, təbiətcə cinsi fərqlər transformasiyaya və yeni identikliyin zəruri şəkildə formalaşmasına səbəb olur. Yaranan şəxsi çətinliklər ağır nevroza –

identikliyin böhranına səbəb olur.

Odur ki, identikliyin mühüm funksiyası geniş mənada ətraf aləmə adaptasiyadır, nəticəsi bir çox qadınlarda maskulin keyfiyyətlərinin, kişilərdə feminlik keyfiyyətlərinin inkişafıdır. Belə dəyişikliklər qlobal olub sosial təşkilatların müxtəlif səviyyələrində baş verir ki, orada qarşılıqlı asılılıq əsas prinsip hesab olunur. Gender identikliyinin transformasiyası özündə dəyişikliklərə adaptiv imkanları və normaların variativliyini əhatə edir. Müasir dövrdə cəmiyyətdə gender bərabərliyinə vətəndaş cəmiyyətinin təşəkkülünün zəruri şərti kimi baxırlar. Buna nailolma planında təhsilin psixoloji məzmunu ən mühüm rolu oynayır.

Respublikamızda ümumi təhsilin məzmununu gender balansı hesab etmək olmaz. Qadınlar, ilk növbədə, ana və evdar qadın, kişilər isə evdən kənarda işləyən və peşə sferasında özlərini reallaşdıran insanlar kimi təqdim olunurlar. Sosioloji müşahidələr göstərir ki, müəllimlərə görə, təlimdə şagirdlər kişiləri müdafiə edən hərbçi kimi, qadınları isə zəif, müdafiəyə ehtiyacı olan məxluq kimi təsvir edirlər. Müəllimlər müstəqillik göstərən, analitik təfəkkürə malik, davranışlarında sərbəst olan, oğlanların davranışını dəstəkləyir, onlardan özlərinə inam, işə yaradıcı münasibət, qızlardan isə icrası verilən tapşırığı yerinə yetirməyi gözləyirlər.

Gender təhsili sadəcə müvafiq yeni fənləri deyil, hər şeydən əvvəl, qadın və kişilərin sosial rolları haqqında patriarxal təsəvvürləri dəyişən yeni fəlsəfi təhsili özündə ehtiva edir. Demokratiyanın müasir konsepsiyasına görə, gender bərabərliyinə nail olmadan, bütünlükdə demokratik cəmiyyət qurmaq qeyri-mümkündür. Yalnız cinslərin bərabər hüquqları əsasında tərbiyə gələcək vətəndaşların elitar düşüncəsini formalaşdırmağa qadirdir. Açıq demokratik cəmiyyət üçün tolerantlıq, tənqidi təfəkkür, müstəqillik kimi keyfiyyətlərin olması zəruridir. Gender təhsili olmadan bu keyfiyyətlərin tərbiyəsi, gender münasibətlərinin harmonik şəkildə formalaşması da mümkün deyildir. Gender kateqoriyası pedaqoji prosesdə prinsipial əhəmiyyət kəsb edir. Belə ki, peşə özünütəyini haqqında bir çox təsəvvürlər, həyati strategiyalar formalaşır ki, bu da sosio-cinsi yönəliklik əsasında resurslara və hakimiyyətə gətirib çıxarır. Sosiallaşmanın spesifik mədəni xarakteri o zaman təzahür edir ki, hər bir mədəni mühitin xüsusiyyətlərində insan şəxsiyyətinin izləri qoyulur. Hər bir etnik milli mədəniyyət özünün norma və dəyərlərini, stereotiplərini, birgə fəaliyyət üslublarını, mənəvi mühitdə simvolik obrazları qoruyub saxlayır. Sosial xarakterin təsir xüsusiyyətləri gender soaiallaşmasına böyük təsir göstərir, sosiomədəni mühitlə müəyyən edilir, fərdin olduğu yaş mərhələlərindən asılılığı fərqləndirilir.

İ. Kostikovun fikrincə, yaş aspektində gender təşkili məktəblilərin və tələbələrin təhsilidir. Məktəblilərin təhsili ona istiqamətlənir ki, sosializasiya problemlərini həll etmək üçün oğlan və qızlar, onlar tərəfindən qəbul edilmiş müəyyən sosial rollar identifikasiyanın mühüm hissəsidir. Gender soaiallaşması cins-rol yanaşmasında anlayışların açarıdır. Onun əsas konsepsiyası belədir: uşaq bioloji cinsə yiyələnməklə anadan olur, lakin onda sosial cins və ya gender olmur. Uşaq soaiallaşma prosesində sosial davranışını sonralar bu və ya digər cinsə uyğunlaşdırır. Onun həmin qaydaları və modelləri mənimsəməsini isə norma adlandırırlar.

Uğurlu sosiallaşma sanksiya mexanizmlərinə rəğbətləndirməyə/cəzalandırmaya zəmanət verir. Sosial normaların internalizasiyasının (aşkar biliyin gizli formaya çevrilməsi) nəticəsi bu və ya digər cinsə münasibətdə sosial gözləmələrə müvafiq gender identifikasiyasının formalaşmasını təşəkkül etdirir (3).

Gender yönəlişliyi nəticə kimi kişilər istisna olmaqla peşə rollarının möhkəmlənməsi ilə bağlıdır. Ailədə isə kişi və qadınların hisslərinə mənfi təsir göstərir. Belə situasiya şəxsi inkişaf imkanlarını məhdudlaşdırır, peşə sferasında qadınların, ailədə isə kişilərin özlərini reallaşdırmasına maneə olur. Cinsi-rol yanaşması struktur-funksionalizm nəzəriyyəsi kontekstində

T.Parsons və R.Beyls tərəfindən formulə edilmişdir. Nəzəri mənbələrin əsasını P.Berqer və T.Lukman tərəfindən hazırlanlanmış reallığın sosial konstruksiyası nəzəriyyəsi təşkil edir. Həmin nəzəriyyəyə görə, sosial reallıq obyektivliyin xassəsi kimi subyektiv xarakter daşıyır. Sosial reallığın obyektivliyi fərdə münasibətdə qaydalardan asılı olmayaraq mövcuddur. Reallıq fərd tərəfindən gündəlik birgə fəaliyyətdə, reallığın subyektiv xarakterində təzahür edir. Fərd özünün sosial aləmini yaradır, təcrübəni mənimsəyir, bir sözlə fəaliyyətli xarakter daşıyır. Gender münasibətlərində sosial konstruktiv nəzəriyyə obyektivdir, çünki fərd onları qəbul edir, digər tərəfdən isə onlar sosial baxımdan subyektivdirlər. Burada əsas mahiyyət ondan ibarətdir ki, fərd təkcə gender qaydalarını qəbul etmir, həm də onları qurur.

Konstruktiv yanaşmada əsas diqqət sosial agentlərin aktiv fəaliyyətinə yönəldilir. Cins-rol yanaşmasında özünüreallaşdırma anlayışı nümunələri mənim- səməyə təhrik edir. Gender təhsili sosial reallığın stimullaşdırıcı vərdişlərinə, qadın və kişilərin fərdi təcrübəsinə yönəldilir, məqsəd isə kişi və qadın rollarındakı ədalətsiz fərqlərin nəticələrini, onların status mövqeyindəki bərabərsizliyi aradan qaldırır. Psixoloji tədqiqatlar uşaqların gender soaiallaşmasına müəllimlərin təsirini müəyyən etmişdir:

- Müəllimlər qızlara nisbətən oğlanlara daha çox diqqət yetirirlər.
- Öyrədənlər qızlardan fərqli olaraq, oğlanlardan daha yüksək nəticələr gözləyir və onların təlimini yüksək dəyərləndirirlər.
- Müəllimlər qızlara nisbətən oğlanları tez-tez tərifləyir (oğlanları düzgün cavablarına və biliyinə, qızları isə dərsə sakit qulaq asdıqlarına görə tez-tez tərifləyirlər).
- Onlar oğlanları mütəmadi olaraq özlərini yaxşı aparmadıqlarına, qızları isə verdikləri cavablarındakı səhvlərə görə pisləyirlər.

Yuxarıda qeyd olunanlardan belə qərara gəlirik ki:

- Şagirdlər sistematik olaraq məhz kişilərin cəmiyyətdə aparıcı rola malik olduğunu düşünürlər.
- Qadınların həyat sferasında, mədəniyyətində qoyduqları elmi biliklər məhdudlaşdırılır.
- Müəllimlər çox hallarda oğlanları davranış modellərinə yaxşı yiyələndiklərinə və təşkilatçılığa görə rəğbətləndirirlər.

Ümumiyyətlə, müəllimin gender mədəniyyəti anlayışı "gender həssaslığı" adı altında şəxsiyyətlərarası birgə fəaliyyətin xarakteri ilə müəyyən edilir. Balanlaşdırılmış gender prinsipinə əsasən müəllimləri təlim-tərbiyə prosesinə cəlb etməkdir. Bu cür balanslaşma cəmiyyətdə cinsi iyerarxiyanın qurulmasıdır: burada cinslərdən biri əsas, digəri isə tabeçidir. Bu iyerarxiyada hər ikisi əziyyət çəkir: qadın bütünlükdə şəxsiyyət kimi öz potensialını reallaşdıra bilmir, kişi isə həyatı boyu gərgin vəziyyətdə olmalıdır ki, özünün güclü olduğunu göstərə bilsin. Bir cins üzərində dominantlıq başqasında insan hüququnun pozulmasına səbəb olur. Gender həssaslığı şəxsin gender mədəniyyətinin əsası kimi başa düşülməli və o, təlim və tərbiyə prosesinin əsas vəzifələrinə daxil edilməlidir.

**Məqalənin aktuallığı.** Balanlaşdırılmış gender prinsipinə əsasən müəllimləri təlim-tərbiyə prosesinə cəlb etməkdir. Gender həssaslığı gender mədəniyyətinin əsası kimi təlim-tərbiyə prosesində mühüm rol oynayır.

**Məqalənin elmi yeniliyi.** Elmi məqalədə pedaqoji prosesin iştirakçılarının sosiallaşma və identifikasiyasının gender aspektləri ardıcıllıqla tədqiq edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1.Abbasov Ə., Mirzəzadə R. Genderə giriş. "Gender və İnsan Hüququ" Araşdırma Birliyi. Bakı, 2004, 120 səh.

2.Kylyshbayeva B. Transformatsiya gendernoy identich-nosti [Elektronnyy resurs] //Rezhim dostupa: http: //www. gender studies.info /psihol /psihol5. php

3.Radzivilova, M.A. Struktura gendernoy kompetent-nosti pedagoga [Tekst] / M.A. Radzivilova //Teoreticheskiye osnovy obrazovaniya. Pedagogicheskoye obrazovaniye. № 4., 2009, s. 35-41.

**К.Н. Гахраманова**

## Гендерные аспекты социализации и идентификации участников педагогического процесса

## Резюме

Школа — это социальная среда, в которой дети выступают в качестве субъектов в связях с общественностью. Процесс их социализации также реализован здесь. На уровне совместной деятельности социальных групп психологический анализ однополых гендерных отношений в соответствии с сексуальными характеристиками осуществляется в системе «Групповой группой». Детерминанты гендерных отношений являются гендерные стереотипы, которые отражают разнообразие социальных стереотипов. Гендерные отношения на этом уровне являются детерминантами гендерной ориентации как один из видов социальной ориентации. Полная чувствительность должна быть понята в качестве основы индивидуальной гендерной культуры, и она должна направлять задачи процесса обучения и образования системы образования.

**Q.N. Qahramanova**

## Gender aspects of socialization and identification of participants of the pedagogical process

## Summary

School is a social environment in which children act as subjects in public relations. The process of their socialization is also implemented here. At the level of joint activity of social groups, a psychological analysis of same-sex gender relations according to sexual characteristics is carried out in the "group-group" system. The determinants of gender relations are gender stereotypes, which reflect the diversity of social stereotypes. Gender relations at this level are determinants of gender orientation as one of the types of social orientation. Gender sensitivity should be understood as the basis of an individual's gender culture, and it should guide the tasks of the training and education process of the education system.

**Redaksiyaya daxil olub:** 26.10.2021